AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**Təsdiq edirəm:**

**"İqtisadiyyat" kafedrasının**
**müdiri: i.ü.f.d., dos.S.İ.Hümbətova**
**04 fevral 2025-ci il**

**"Beynəlxalq biznes iqtisadiyyati" fənni üzrə**

# İŞÇİ TƏDRİS PROQRAMI

**(Sillabus)**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Fənnin adı | **Beynəlxalq biznes iqtisadiyyatı** | | | | | |
| Fakültə | **İqtisadiyyat və idarəetmə** | | | | | |
| Kafedra | **İqtisadiyyat** | | | | | |
| Fənnin kodu | **00169** | | | | | |
| Fənnin növü | **Seçmə** | | | | | |
| Tədris dili | **Azərbaycan** | | | | | |
| Tədrisin forması, qrup, tədris yükü | Əyani/qiyabi<br>**qrup** | Semestr<br>**payız** | Tədris yükü:<br>**45 saat** | Mühazirə<br>**30 saat** | Məşğələ<br>**15 saat** | Kredit<br>**3** |
| Fənni tədris edən müəllim: S.A.A | | | | | | |
| Tələbələr üçün qəbul vaxtları: | 5 gün 10:00 -13:00 **/gün, saat/** | | | | | |
| Müəllimlə əlaqə: İş telefonu, e-mail ünvanı | **012 564 37 06** | | | | | |

**“Beynəlxalq biznes iqtisadiyyatı” fənninin tədrisinin əhəmiyyəti**

Müasir dünya iqtisadiyyatı qlobal iqtisadi sistemə inteqrasiya olunan, sıx qarşılıqlı əlaqədə və asılılıqda olan milli iqtisadiyyatların məcmusudur. Dünya iqtisadiyyatı bütünlüklə beynəlxalq əmək bölgüsünün, istehsalın və kapitalın beynəlmiləlləşməsinin obyektiv qanunlarına əsaslanır.

Kapital, əmtəə və xidmətlər üçün vahid dünya bazarının formalaşması, iqtisadi yaxınlaşma və ayrı-ayrı ölkələrin vahid dünya iqtisadi sisteminə inteqrasiyası transmilli korporasiyaların fəaliyyəti sayəsində dərinləşmişdir. Beynəlxalq biznes strukturları yeni bazarlarını inkişaf etdirməyə can atırlar, çoxsaylı filiallar və müəssisələr yaradırlar. Müxtəlif ölkələrdəki törəmə şirkətlər, "xarici" dövlətlərin proteksionist maneələri aşmağa, beynəlxalq iqtisadi mübadiləni intensivləşdirməklə geniş əlaqələr yaratmağa imkan vermişdir.

**Fənnin tədrisinin məqsədləri**

Müasir dövrdə beynəlxalq biznes milli biznes vahidlərinin dünya bazarının subyektinə çevrilməsi və işgüzar proseslərin vasitəsilə dünya ticarət və xidmət sisteminə inteqrasiya olunması, müasir cəmiyyətdə innovativ sahibkarlığın və işgüzar münasibətlərin xüsusiyyətlərinin fenomeni kimi şərh olunur.

Beynəlxalq biznesin aparılması qaydalarının və şərtlərinin öyrənilməsi rəqabətli dünyada biznes maraqlarının subyektlərarası ziddiyyətləri sahəsində marketoloqların, menecerlərin və sahibkarların peşəkar hazırlığının zəruri mərhələsidir.

Beynəlxalq biznes iqtisadiyyatı fənninin öyrənilməsinin məqsədi “beynəlxalq biznesdə əməliyyatların mahiyyəti və formaları, onun ölkə iqtisadiyyatında və xaricdə inkişafı şərtləri haqqında yeni nəzəri biliklər əldə etmək, rəqabətqabiliyyətlilik və gəlirlilik səviyyəsini qiymətləndirmək, həmçinin. xarici bazarlarda sahibkarlıq metodologiyası və onların praktikada istifadəsi sahəsində bacarıqlara yiyələnmək təşkil edir.

**Fənnin öyrənilməsinin vəzifələri**

- beynəlxalq biznes sahəsində peşəkar səriştənin formalaşdırılması;
- xarici bazarlarda sahibkarlıq fəaliyyətinin xüsusiyyətlərinin öyrənilməsi;
- müəssisənin (firmanın) xarici iqtisadi fəaliyyəti prosesində beynəlxalq biznes prinsiplərinin həyata keçirilməsi bacarıqlarının formalaşdırılması.
- məhsulların və müəssisələrin rəqabət qabiliyyətinin qiymətləndirilməsi üsullarının işlənib hazırlanması;
- beynəlxalq biznesin inkişafının tənzimlənməsi sistemini başa düşmək;
- qloballaşmanın milli iqtisadiyyata təsirinin müəyyən edilməsi;
- Biznesin inkişafının və beynəlxalq əməliyyatların effektivliyinin əsaslandırılması bacarıqlarının əldə edilməsi

**Tələbənin kursun mənimsəməsi nəticəsində formalaşan kompetensiyaları**

- peşə fəaliyyətində təşkilati və idarəetmə qərarlarını formalaşdırmaq bacarığı;

- biznes problemlərinin həlli üçün müasir texniki vasitələrdən və informasiya texnologiyalarından istifadə etmək bacarığı;
- idarəetmə qərarları üçün təklif olunan variantları tənqidi qiymətləndirmək, sosial-iqtisadi səmərəlilik meyarlarını, biznes risklərini və mümkün sosial-iqtisadi nəticələri nəzərə almaqla onların təkmilləşdirilməsi üçün təkliflər hazırlamaq və əsaslandırmaq bacarığı

**Kursun mənimsənilməsi nəticəsində tələbələr bilməlidir:**

- beynəlxalq biznesin mahiyyətinini, növlərini və formalarını;
- dünya iqtisadiyyatında biznesin əsas fəaliyyət istiqamətləri üzrə inkişafını xarakterizə edən əsas göstəriciləri;
- beynəlxalq biznesin xarici və daxili mühitinin xüsusiyyətlərini;
- müəssisənin fəaliyyətinin müsbət və mənfi cəhətlərinin mövcud mühitdən asılılığını;
- ticarət və investisiya modellərinə, rəqabət üstünlüyü strategiyalarına təsir edən amilləri;
- ticarət əməliyyatlarının formalarını və onlara təsir edən amilləri;
- müasir mərhələdə beynəlxalq biznesin aparılmasının xüsusiyyətlərini

**Bacarmalıdır;**

- iqtisadi fəaliyyət sahəsində Azərbaycanın qanunvericiliyinin tələblərinin yerinə yetirilməsi və qabaqcıl təcrübədən istifadə etmək;
- beybəlxalq biznes mühitinin imkişafını və valyuta bazarlarının işinin xüsusiyyətlərini təhlil etmək;
- daxili və xarici statistikanın sosial-iqtisadi proses və hadisələrə dair məlumatlarını təhlil və şərh etmək;
- dünya bazarının dinamikasında meylləri müəyyən etmək.

**Fənn üzrə saatların həcmi**

Fənnin tədrisi ümumilikdə 45 saat nəzərdə tutulmuşdur ki, bunun da 30 saat mühazirə, 15 saat seminar dərsləridir. Tövsiyə olunan nəzarət formaları – aralıq və yekun imtahandır.

**Tematik plan**

| № | Mövzu | Mühazirə | Seminar |
|---|---|---|---|
| Mövzu 1 | Beynəlxalq biznes anlayışı və biznes fəaliyyətinin ümumi təsviri | 2 | - |
| Mövzu 2 | Beynəlxalq biznes fəaliyyətinin təşkili formaları | 2 | 2 |
| Mövzu 3 | Beynəlxalq ticarət əməliyyatları və ticarət müqavilələri | 2 | - |
| Mövzu 4 | Beynəlxalq biznesdə françayzinq və istifadə hüquqları | 2 | 2 |
| Mövzu 5 | Beynəlxalq investisiya biznesi | 2 | - |
| Mövzu 6 | Beynəlnalq istehsal əməkdaşlığı və autsorsinq | 2 | 2 |
| Mövzu 7 | Transmilli korporasiyaların beynəlxalq biznesdə rolu, xüsusiyyətləri və üstünlükləri | 2 | - |
| Mövzu 8 | Beynəlxalq şirkətlərin rəqabət münasibətləri və qlobal rəqabətliyin qiymətləndirilməsi | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| Mövzu 9 | Xarici bazara çıxış strategiyaları və strateji alyanslar | 2 | - |
| Mövzu 10 | İqtisadi inteqrasiya şəraitində beynəlxalq biznes | 2 | 2 |
| Mövzu 11 | Beynəlxalq marketinqin rolu, mal, satış və kommunikasiya siyasəti | 2 | - |
| Mövzu 12 | Beynəlxalq biznesdə loqistikanin təşkili | 2 | 2 |
| Mövzu 13 | Qloballaşma və beynəlxalq biznesin tənzimlənməsi | 2 | - |
| Mövzu 14 | Beynəlxalq biznes etikası və qlobal biznes mühiti | 2 | 2 |
| Mövzu 15 | Azərbaycan şirkətlərinin beynəlxalq biznes fəaliyyəti və dövlət dəstəyi | 2 | 1 |
| | Cəmi- 45 saat | 30 | 15 |

## TƏLİM MATERİALININ MƏZMUNU

**Mövzu 1. Beynəlxalq biznes anlayışı və biznes fəaliyyətinin ümumi təsviri**

Biznesin mahiyyəti, onun əsas subyektləri. Biznesdə fərdi, korporativ, ictimai və kreativ maraqlar. Beynəlxalq biznes anlayışı, onun xüsusiyyətləri. Beynəlxalq biznesin bir ölkə daxilindəki kommersiya fəaliyyətindən fərqləri. Biznesin beynəlmiləlləşməsi prosesi və onun nəzəri aspektləri. Biznesin beynəlmiləlləşməsini şərtləndirən amillər. Biznesin beynəlmiləlləşməsinin hərəkətverici qüvvələri. Qloballaşma beynəlmiləlləşmənin yeni keyfiyyəti kimi. Beynəlxalq biznesin inkişafı üçün transmilli və qlobal strategiyalar. Xarici mühit və rəqabət amillərinin biznes məqsədlərinə təsiri.

**Mövzu 2. Beynəlxalq biznes fəaliyyətinin təşkili formaları**

Beynəlxalq biznesin həyata keçirilməsinin əsas formaları. Birgə müəssisələr. İntellektual fəaliyyət məhsullarının trans sərhəd hərəkətinin formaları. Ptent və Lisenziya müqaviləsi əsasında biznes formaları. Françayzinq.Beynəlxalq biznesin təşkilinin əsas motivləri və onların müasir xüsusiyyətləri. Beynəlxalq biznes çoxsəviyyəli sistem kimi. Beynəlxalq biznesin həyata keçirilməsi üçün motivasiya.

**Mövzu 3. Beynəlxalq ticarət əməliyyatları və ticarət müqavilələri**

Beynəlxalq ticarətin müasir forma və üsulları. Dünya ticarətinin inkişafına maneələr. Beynəlxalq və milli ticarət siyasəti. Xarici ticarət siyasətinin formalaşdırılması alətləri. Beynəlxalq ticarət əməliyyatları və xüsusiyyətləri.Xarici ticarət sazişləri. Beynəlxalq ticarət əməliyyatının hazırlanması prosedurları və texnikaları.Xarici ticarət kontraktının hüquqi tənzimlənməsi.Alqı-satqı müqaviləsinin strukturu və xarakteristikası. Beynəlxalq ticarətin maliyyələşdirilməsi və risklər.Beynəlxalq ticarətdə istifadə olunan sənədlər, təsnifatı və xarakteristikası. Xarici bazarlara çıxış formalarının seçilməsi və əsas cəhətləri.

**Mövzu 4. Beynəlxalq biznesdə françayzinq və istifadə hüquqları**

Dünyada françayzinq tarixi.Françayzinq konsepsiyası və terminologiya. Françayzinqin əsas cəhətləri.Françayzinq növləri .Françayzer-françayzi münasibətləri forması. Françayzinqin digər ticarət və biznes modellərlə müqayisəsi

Françayzinq müqaviləsi. Françayzinq və kommersiya güzəşti.Françayzinq münasibətlərinin qanunvericiliklə tənzimlənməsi. Azərbaycan Respublikasında françayzinqin hüquqi bazasi, tətbiqi və inkişafı.

**Mövzu 5. Beynəlxalq investisiya biznesi**

Xarici investisiyaların iqtisadi mahiyyəti və xüsusiyyəti. Xarici investisiyaların təsnifatı və strukturu. Beynəlxalq investisiya münasibətlərin tənzimlənyən rejimlər və onların xarakterik cəhətləri.Birbaşa xarici investisiyaların inkişafının qlobal meylləri. Azərbaycanda investisiya biznesi imkanları, investisiya siyasəti və investisiya mühiti

**Mövzu 6. Beynəlnalq istehsal əməkdaşlığı və autsorsinq**

Autsorsinqin yaranma tarixi və mahiyyəti. Autsorsinq anlayışına əsas yanaşmalar və onun əsas prinsipləri. Autsorsinqi şirkətlərarası əməkdaşlığın digər formalarından fərqləndirən xüsusiyyətləri.Autsorsinqin təsnifat əlamətləri və xarakteristikası. Autsorsinqin dünya praktikasında geniş yayılmış növləri və xüsusiyyətləri. Müqavilə istehsalı üzrə işlərin həcminə əsasən autsorsinqin inkişaf. Autsorsinqin faydaları və riskləri. Biznes planı və autsorsinq variantları ilə bağlı əsas cəhətlər.

**Mövzu 7. Transmilli korporasiyaların beynəlxalq biznesdə rolu, xüsusiyyətləri və üstünlükləri**

Biznesin və istehsalın transmilliləşməsi: mahiyyəti, səbəbləri və üstünlükləri.Transmilli korporasiyalar anlayışı, təyini və xüsusiyyətləri. TMK biznesin qloballaşmasının forması kimi, onların mahiyyəti, əlamətləri və xüsusiyyətləri. TMK-ların yaranması və təşkilati inkişafının səbəbləri.Biznesin transmilliləşmə səviyyəsinin ölçülməsi üzrə UNCTAD metodikası: transmilliləşmə indeksi və onun komponentləri.Transmilli korporasiyaların strukturu və fəaliyyət xüsusiyyətləri. Transmilli korporasiyaların təsnifatı tə təşkili formaları.

**Mövzu 8. Beynəlxalq şirkətlərin rəqabət münasibətləri və qlobal rəqabətliyin qiymətləndirilməsi**

Rəqabət anlayışı və iqtisadiyyatın inkişafında onun rolu. Rəqabətin nəzəri və metodoloji əsasları. Bazarların tipologiyası. İnhisar gücü olan bazarlar. Bazar modelləri və onların əsas xüsusiyyətləri.Əmtəə bazarına giriş maneələri. Rəqabətlilik anlayışı və onun xüsusiyyətləri. "Rəqabətlilik" termininin tərifinə nümunələr.Rəqabətli Üstünlük Nəzəriyyəsinin Təkamülü. M.Porter tərəfindən rəqabət amillərinin "rombu". Rəqabət strategiyaların inkişafına klassik yanaşma. Əsas strategiya variantlarının həyata keçirilməsi şərtləri. Qlobal rəqabətlik indeksi.

**Mövzu 9. Xarici bazara çıxış strategiyaları və strateji alyanslar**

Bazara çıxış (nüfuzetmə) strategiyaları və onun seçiminə təsir edən amillər. İxrac strategiyaları. Müqavilə Strategiyaları. İnvestisiya Strategiyaları. Şirkətlərin xarici

bazarlara çıxış motivləri və riskləri. Beynəlxalq strateji alyansların mahiyyəti, üstünlükləri və mənfi cəhətləri.

**Mövzu 10. İqtisadi inteqrasiya şəraitində beynəlxalq biznes**

Beynəlxalq iqtisadi inteqrasiyanın yaranması və inkişafı. İnteqrasiyanın inkişafının ilkin əsas şərtləri. Beynəlxalq və regional iqtisadi inteqrasiya nəyi əks etdirir: anlayışı, formaları və xüsusiyyətləri. Beynəlxalq iqtisadi inteqrasiyaya nəzəri yanasmalar, dinamik və statik effekt. İqtisadi inteqrasiya proseslərinin şirkətlərin biznes fəaliyyətinə təsiri. Azad ticarət zonası. Gömrük İttifaqı. İqtisadi və valyuta ittifaqı.

**Mövzu 11. Beynəlxalq marketinqin rolu, mal, satış və kommunikasiya siyasəti**

Beynəlxalq marketinqin nəzəri əsasları. Beynəlxalq marketinqin mahiyyəti və xüsusiyyətləri. Beynəlxalq marketinqin tətbiqi mərhələləri və səviyyələri. Beynəlxalq marketinqdə məhsul və məhsul siyasəti. Beynəlxalq bazarlarda malların marketinq xüsusiyyətləri. Məhsulun beynəlxalq bazarda həyat dövrünün xüsusiyyətləri. Beynəlxalq marketinqdə satış siyasəti. Beynəlxalq marketinq siyasətinin mahiyyəti və xüsusiyyətləri.paylayıcı kanal seçilərkən nəzərə alınan amillər. Beynəlxalq marketinqdə kommunikasiya siyasəti.

**Mövzu 12. Beynəlxalq biznesdə loqistikanin təşkili**

Beynəlxalq lojistikanın mahiyyəti və xüsusiyyətləri. Logistikanın əhəmiyyəti və rolu, onun inkişafının təkamülü. Beynəlxalq logistikanın spesifikliyi, onun predmeti və metodologiyası.Dünya iqtisadiyyatının qloballaşması beynəlxalq logistikanın formalaşması amili kimi. Beynəlxalq logistika prosesinin əsas iştirakçıları. Beynəlxalq biznesdə logistika üçün tapşırıqlar.Beynəlxalq təchizat zəncirləri beynəlxalq logistikanın obyekti kimi.

**Mövzu 13. Qloballaşma və beynəlxalq biznesin tənzimlənməsi**

Qloballaşma: konsepsiya, ilkin şərtlər, amillər, istiqamətlər inkişafı, nəticələri. Rəqəmsal qloballaşma.İnkişaf etmiş ölkələrdə və inkişaf etməkdə olan ölkə bazarlarında təzahür formaları. Dünya makroregionlarının inteqrasiyasının artması. Çinin Bir Kəmər, Bir Yol (OBOR) və Beynəlxalq İstehsal Kooperasiyası təşəbbüsləri çərçivəsində həyata keçirilən yeni qloballaşma modeli. Dünya iqtisadiyyatının inkişafının qlobal problemləri və onların həllində dünya ölkələrinin əməkdaşlığı. Rəqəmsallaşma və pandemiyanın nəticələri ilə bağlı problemlər. Milli və beynəlxalq iqtisadi təşkilatların tənzimləyici fəaliyyəti.

**Mövzu 14. Beynəlxalq biznes etikası və qlobal biznes mühiti**

Biznes etikası: yanaşmalar və nəzəriyyələr.Qloballaşma və beynəlxalq biznes.Beynəlxalq biznesdə etik problemlər.Etik qərarvermə modelləri.Beynəlxalq biznesdə etik kodekslər.Transmilli şirkətlər və onların nümunəsində biznes etikası.İdarəetmə fəaliyyətində etik yanaşmalar. Marketinq fəaliyyətində süni intellekt və

etik yanaşma. Sosial media və etika. Korporativ sosial məsuliyyət. Sosial məsuliyyətlə bağlı standartlar.Biznes etikasının institusionallaşması.

**Mövzu 15. Azərbaycan şirkətlərinin beynəlxalq biznes fəaliyyəti və dövlət dəstəyi**

Azərbaycanda biznesin təşkili və inkişafı. İri biznes strukturlarının yaranması, rolu və fəaliyyəti. Azərbaycanın biznes stukturlarının xarıcı iqtisadi fəaliyyəti. Neft sektorunda beynəlxalq biznesin inkişafı. Ölkədə qeyri-neft sektorunun inkişafında biznes fəaliyyətinin rolu. Azərbaycanda biznesin dəstəklənmə formaları. Azərbaycanda beybəlxalq biznesin inkişafina xidnət göstərən infrastruktur sistemlər. Azərbaycanda perspektiv beynəlxalq iqtisadi lahiyələr və əməkdaşlığın inkişafı.

**Tövsiyə olunan əsas ədəbiyyat:**

1. Charles W.L.Hill, International Business. Competing In The Marketplace, $8^{th}$ ed.PEARSON

2.Международный бизнес: Учебное пособие / В.К. Поспелов, Н.Н. Котляров, Н.В. Лукьянович, Е.Б. Стародубцева; Под ред. В.К. Поспелова. - М.: Вузовский учебник: НИЦ ИНФРА-М, 2014. - 256 с

**Əlavə ədəbiyyat:**

1. Мировая экономика и международный бизнес: электронный учебно-методический комплекс / А.В. Макаревич, А.А. Черкасов; Брест. гос. ун-т: БрГУ, 2019. – 351 с
2. Инвестиции и инвестиционная деятельность: учебник / Л. И. Юзвович, М. С. Марамыгин; Уральский государственный экономический университет. – Екатеринбург: Изд-во Урал. ун-та, 2021., с.359
3. Лаптева А. М. Инвестиционные режимы. Правовые аспекты: учеб. пособие для бакалавриата и магистратуры. М. : Юрайт, 2019.
4. Dövlət investisiya siyasəti. https://www.economy.gov.az/az/page/iqtisadiyyat/investisiya/dovlet-investisiya-siyaseti
5. World Investment Report. s 2-10. https://unctad.org/system/files/official-document/wir2022_en.pdf,
6. Шимширт Н.Д., Аутсорсинг в бизнесе и государственном (муниципальном) управлении: учеб. пособие. Томск: Изд-во Том. ун-та, 2015. – 172 с.
7. Transnational Corporations Volume 29, 2022, Number 2, https://unctad.org/webflyer/transnational-corporations-volume-29-2022-number-2
8. Карачев И. А. Транснациональные корпорации в современной мировой экономике: учебно-методическое пособие / И. А. Карачев; Ярославль: ЯрГУ, 2019. 72 с.

9. Международный менеджмент: учеб. пособие / Л. М. Капустина, Ю. Н. Кондратенко, Ю. Г. Мыслякова ; М-во образования и науки Рос. Федерации, Урал. гос. экон. ун-т. Екатеринбург, 2017. 142 с., с.69-83

10. Elena Horská et al., International Marketing: Within and Beyond Visegrad Borders, Krakow , WYDAWNICTWO EPISTEME 2014, p.135-146

11. Мисько О.Н. Международная экономическая интеграция. СПб: Университет ИТМО, 2015. 174 с., с.26-38

12. Электронный учебно-методический комплекс (УМК) по учебной дисциплине «Международная экономическая интеграция, БГУ, 2012

13. Mübariz Məmmədli, Biznes etikası, Ali məktəblər üçün dərs vəsaiti, Bakı 2020, 255 s.

14. Мокроносов, А. Г. Конкуренция и конкурентоспособность: учебное пособие. Екатеринбург: Изд-во Урал ун-та, 2014. – 194 с.

15. Hüseynova X.M., Quliyev M.Y. Qlobal rəqabətlilik (dərs vəsaiti): Bakı: "Müəllim" nəşriyyatı, 2016. – 132 s.

16. Quliyev M.Y. Qloballaşma prosesi, iqtisadi transformasiya və dəyişikliklərin idarə olunmasi (dərs vəsaiti). Bakı: "Müəllim" nəşriyyatı, 2021. 202 s.

**SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

**DƏRSƏ DAVAMİYYƏT**

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

**FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ** (*Əyani təhsilalma forması üzrə*)

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

**Burada,**

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - “əvəzgün” verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, qiyabi) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2

gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda (Qiyabi şöbədə) keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, qiyabi) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA QƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

***QEYD:*** İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.